RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 175 (8768) ŞƏNBƏ, 21 avqust 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# İlham Əliyevin Kəlbəcərə və Laçına səfəri Ermənistanın son təxribatlarına ən tutarlı cavabdır

## “Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir”, - deyən dövlət başçısı səfər zamanı vacib bəyanatlar verdi

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarında səfərdə olublar. Bu səfər də işğaldan azad olunmuş ərazilərə edilən əvvəlki səfərlər kimi, ölkə və dünya ictimaiyyətinə verilən vacib mesajlarla yadda qaldı. Nə idi həmin mesajlar?**

Dövlət başçısı Ömər aşırımının ən hündür yerindən ölkəyə müraciət etdi: “Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm”. Kəlbəcərə müharibədən sonra ilk dəfə səfər etdiyini, bu bölgənin yenidən bərpa olunub qurulacağını bəyan edən dövlət başçısı ölkə mətbuatına da səsləndi: “1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunun adını dəyişdirərək ona “Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda “Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır”.

Heç yadımızdan çıxmaz: erməni işğalçıları Kəlbəcəri tərk edəndə vaxt istədilər və bizim humanistlik edərək onlara verdiyimiz zamanda 1992-ci ildə kəlbəcərlilərdən onlara qalmış evlərə od vurdular, meşələri qırdılar, infrastrukturu dağıtdılar və torpağa minalar basdırdılar. Torpaqlarımız işğaldan azad edildikdən sonra isə onların törətdikləri bu ağlasığmaz vəhşiliklər dünya ictimaiyyətinə bütün çılpaqlığı ilə, ildırım sürəti ilə yayıldı. Hamı bir daha şahid oldu ki, unitazını belə, dalına sarıyıb qaçan yadelli varvarlar hətta dünyanın ən faydalı və zərif canlısı olan arılara divan tutmuş, yüzlərlə, minlərlə arı pətəyini od vurub yandırmış, bəşər tarixində rast gəlinməyən qəddarlıq və vəhşiliklər törətmişlər. Heç vaxt, heç bir işğalçı belə rəzilliyi özünə rəva bilməzdi. Amma ermənilər bunu da bacardılar.

Halbuki erməni təbliğatçıları yüz illər boyu bu yerlərin, bu torpaqların onların “dədə baba yurdları” olması barədə əfsanələr uydurmuşlar. Fərqinə də varmamışlar ki, əgər üstündə yaşadığın torpağa belə vəhşiliklə divan tutursansa, deməli, bu yerin sahibi deyilsən və heç vaxt da olmamısan.

İşğalçı Ermənistan məğlub edilməsinə baxmayaraq, bu gün də bütünlükdə sülhün və əmin-amanlığın qəddar düşməni kimi qalmaqdadır. Əsrlərboyu faşizm ideologiyası ilə iliyinədək zəhərləndirilən xalqın siyasi elitası da, sıravi insanlarının əksəriyyəti də özlərini faşizmin köləsi kimi yaşamağa məhkum ediblər.

Sadə bir məqama diqqət yetirək: müharibə artıq 9 aydır qurtarıb. Bu müddətdə Azərbaycanın atdığı bütün addımlar sülhə, iqtisadi dirçəlişə və işğal edilmiş ərazilərdə iqtisadiyyatın dirçəlməsinə yönəlib. İşğalçı Ermənistan isə faşizmin quluna çevrildiyini anlamadan revanş siyasətindən əl çəkmir. Paşinyan danışıqlara hazır olduğunu bəyan edir, amma elə bu bəyanatda 30 il erməni vandallığını dilə gətirməyən Minsk qrupundan təkliflər gözlədiyini bildirir.

*Ardı 7-ci səh.*

## “Enerji resurslarından istifadə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 noyabr tarixli 512 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. “Enerji resurslarından istifadə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 noyabr tarixli 512 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 121; 2003, № 10, maddə 582; 2007, № 8, maddə 769; 2013, № 11, maddə 1332; 2014, № 2, maddə 112; 2018, № 5, maddə 967) ləğv edilsin.
2. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2021-ci il*

## Ermənistan silahlı qüvvələri müxtəlif istiqamətlərdə mövqelərimizi atəşə tutub

**Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 19-u saat 17:24-dən etibarən avqustun 20-si saat 00:25-dək Gorus rayonunun Xanazax, Basarkeçər rayonunun Aşağı Zağalı və Berd rayonunun Çinarlı yaşayış məntəqələri ərazisində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Cağazur, Kəlbəcər rayonunun İstisu və Tovuz rayonunun Əsrik Cırdaxan yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bundan əlavə, avqustun 20-si saat 01:23-dən etibarən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən Şuşa şəhərinin Xəlfəli yaşayış məntəqəsi ətrafında yerləşən bölmələrimizin mövqeləri istiqamətində atıcı silahlardan fasilələrlə atəş açılıb.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Hazırda qeyd olunan istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Pambıq yığımı ərəfəsində pambıqçıya şad xəbər

### Satınalma qiymətinin növbəti dəfə artırılması pambığı yenidən “ağ qızıl” edir



**Son illər pambıqçılıq sahəsində uğurlu nəticələr əldə olunur. Təkcə keçən il ölkə üzrə 336 min ton pambıq istehsal edilmiş, hər hektarın məhsuldarlığı 33,6 sentner olmuşdur. Bunun əsas səbəbi dövlətin pambıq kimi strateji bir məhsulun istehsalının artırılmasına verdiyi hərtərəfli dəstəkdir.**

*Bax: səh. 7*

## Xəzərdə yeni rəqəmsal texnologiyanın tətbiqinə başlanılıb

bp “Şərqi Azəri” və “Qərbi Çıraq” platformalarında üçölçülü (3D) vizuallaşdırma texnologiyasının tətbiqinə başlayıb. Bununla şirkət regionda əməliyyatçısı olduğu bütün obyektlərin rəqəmsal modelləşdirilməsinin birinci mərhələsinə start verib.

*Bax: səh. 7*



## *Prezidentin köməkçisi:*

## «Bu gün hər hansı məhdudiyyətə getməyə ehtiyac yoxdur»




**Bu gün hər hansı bir əlavə sərtləşdirməyə, məhdudiyyətlərə getməyə ehtiyac yoxdur. Bu, ilk növbədə, bu gün səhiyyə sistemimizin kifayət qədər xəstəni qəbul və müalicə etməsi iqtidarında olması ilə bağlıdır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

“Təbii ki, bu gün təzyiq hiss olunur. Həkimlərimiz də yorulurlar. Onlar 2 ilə yaxındır ki, məzuniyyətə də çıxmayıblar. Əlbəttə ki, bu, onlar üçün də ağırdır. Lakin biz görsək ki, xəstəxanalarda yerləşmə əmsalı çox yüksəkdir, o zaman Operativ Qərargah da növbəti addımlarda məhdudiyyətlərin tətbiqini müzakirə edə bilər”, - deyə Prezidentin köməkçisi vurğulayıb.

## Qarabağ dünyanın ən “ağıllı” layihələri ilə yenidən qurulur

44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra qarşıya qoyulan məqsəd işğaldan azad edilmiş Qarabağın bərpası və yenidən qurulmasıdır.



Bunun üçün dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə etmək lazım gəlir. Müasir dövrün özünü doğrultmuş və təsdiq etmiş yeni konsepsiyası isə “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələridir. “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması ilə bağlı Prezident İlham Əliyev 19 aprel 2021-ci il tarixdə müvafiq sərəncam imzalayıb. Dövlət başçısı Qarabağa səfərləri zamanı çıxışlarında azad edilmiş ərazilərdə şəhərlər və kəndlərin “Ağıllı şəhər”, “Ağıllı kənd” konsepsiyası əsasında qurulmalı olduğunu dəfələrlə vurğulayıb.

Bildirib ki, layihə vətəndaşların xidmətlərdən, xüsusən də dövlət xidmətlərindən daha keyfiyyətli şəkildə istifadə etmələrinə imkan yaradacaq.

### “Əşyaların interneti”, “Süni intellekt” kimi texnologiyalar tətbiq olunur

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amilə çevrilib. Bu texnologiyaların istifadəsi və məlumatların təhlili şəhər və kənd mühitində daha düzgün və operativ qərarların verilməsinə imkan yaradır.

“Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrinin əsas ideyası bütün xidmət və obyektləri vahid sistemdə birləşdirib idarə etməkdən ibarətdir. Nəticədə vətəndaşlar üçün daha asan və təhlükəsiz həyat təmin ediləcək, sosial və iqtisadi keyfiyyət yaxşılaşacaq.

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 286-VIQD nömrəli və 23 aprel tarixli 298-VIQD, 301-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 14-cü maddənin 3-cü hissəsinin üçüncü abzasından və 38-ci maddənin 2-ci hissəsinin "i" bəndindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri çıxarılsın;

1.2. 74-cü maddənin "Qeyd" hissəsinin ikinci cümləsində "əlillik dərəcəsi və ya 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri "onun orqanizminin funksiyalarının pozulması faizinə uyğun əlillik" sözləri ilə əvəz edilsin;

1.3. 79-cu maddənin 1-ci hissəsinin yeddinci abzasında "sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I dərəcə əlilliyi olan" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.4. 91-ci maddənin 2-ci hissəsində "1-ci, 2-ci dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.5. 94-cü maddənin 3-cü hissəsindən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın və həmin hissədə "sağlamlıq imkanları məhdud" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.6. 117-ci maddənin 1-ci hissəsində "sağlamlıq imkanları məhdud" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.7. 119-cu maddənin 2-ci hissəsində "Əlilliyin dərəcəsindən" sözləri "Orqanizmin funksiyalarının pozulması faizindən" sözləri ilə əvəz edilsin və həmin hissədən ", o cümlədən sağlamlıq imkanları məhdud olan 18 yaşınadək" sözləri çıxarılsın;

1.8. 130-cu maddənin birinci hissəsi üzrə:

1.8.1. "ç" bəndində "əlillik dərəcəsindən" sözləri "orqanizmin funksiyalarının pozulması faizindən" sözləri ilə əvəz edilsin və həmin bənddən ", o cümlədən sağlamlıq imkanları məhdud olan 18 yaşınadək" sözləri çıxarılsın;

1.8.2. "ə" və "x" bəndlərində "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.9. 133-cü maddənin 3-cü hissəsinin ikinci abzasında, 242-ci maddənin 2-ci hissəsində və 245-ci maddənin 1-ci hissəsinin birinci cümləsində "sağlamlıq imkanları məhdud" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.10. 232-ci maddənin 3-cü hissəsinin ikinci cümləsindən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral 277-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1123.4-cü maddədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu ilə" sözləri çıxarılsın;

2.2. 1165.1-ci və 1181.1-ci maddələrdə ", əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "və əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 281-VIQD nömrəli Qanunu) 105.2-ci maddəsindən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 4.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 280-VIQD nömrəli və 23 aprel tarixli 301-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 84.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"84.2.3. 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad;";

4.2. 84.2.4-cü maddə ləğv edilsin;

4.3. 85.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"85.1.2. 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya 18 yaşına çatanadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ümumi uşağa qulluq edən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);".

**Maddə 5.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 47.4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"47.4.1. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə;";

5.2. 49.4-cü maddədə "birinci dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

5.3. 52.2.6-cı maddədə "I dərəcə əlilliyi olan şəxs" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211; Azərbaycan Respublikasının 2021-ci il 21 may tarixli 322-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 102.3-cü maddədə "I və II dərəcə əlilliyi olan şəxslərin (müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla), sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş (müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla), 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin, daimi qulluq tələb edən 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

6.2. 106.2-ci maddənin ikinci abzasından ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın.

**Maddə 7.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812, № 11, maddə 1686; 2020, № 7, maddə 832, № 8, maddə 1009) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 80.4-cü maddədə "Birinci və ikinci dərəcə əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

7.2. 82.2-ci maddədə, 95.2-ci maddənin birinci cümləsində, 100.2-ci maddədə və 104.1-ci maddənin ikinci cümləsində "birinci və ikinci dərəcə əlilliyi olan, sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

7.3. 91.8-ci, 99.3-cü və 120.5-ci maddələrdə "birinci və ikinci dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

7.4. 175.3-cü maddədə "Birinci və ikinci dərəcə əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin və həmin maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın.

**Maddə 8.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368, № 5, maddə 814, № 8, maddə 1375; 2020, № 6, maddə 670, № 7, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 95-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın;

8.2. 102.2.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"102.2.4. işəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, peşə xəstəliyinə tutulma nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi zamanı yaralanmış, kontuziya nəticəsində və ya hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəstəlik nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş hərbi qulluqçular.".

**Maddə 9.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686; 2020, № 5, maddə 523, № 6, maddə 676, № 7, maddə 832, № 11, maddə 1333) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 3.0.14-cü maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın;

9.2. 54.5-ci maddənin ikinci cümləsində "I dərəcə" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin;

9.3. 64.0.16-cı maddədə "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli, 2 aprel tarixli 287-VIQD nömrəli, 23 aprel tarixli 294-VIQD, 301-VIQD nömrəli və 4 may tarixli 310-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 28.4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"28.4.1. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə;";

10.2. 30.2-ci maddədə "birinci və ya ikinci dərəcə əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12 (I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34, № 3, maddə 392, № 6, maddə 987; 2020, № 5, maddələr 512, 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1423) 92-ci maddəsinin 2-ci hissəsindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın.

**Maddə 12.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8-ci maddənin adında "sağlamlıq imkanları məhdud uşağı olan" sözləri "uşağının əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.2. 8.2-ci maddədə "Sağlamlıq imkanları məhdud" sözləri "Əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.3. 11.1-ci maddənin ikinci cümləsində "Əlillik dərəcələri, əlilliyin, o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun" sözləri "Orqanizmin funksiyalarının pozulması faizi, əlilliyin" sözləri ilə əvəz edilsin;

1.4. 12.1-ci maddə üzrə:

1.4.1. birinci cümlədə "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.4.2. ikinci cümlədə "II və III dərəcə əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 31-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.5. 12.2-ci maddədə, 13.3-1-ci və 17.2-ci maddələrin birinci cümlələrində "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.6. 14.1.1.2-ci maddədə "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin;

1.7. 14.1.2-ci maddədə "I və ya II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.8. 20.1.1-ci, 20.1.3-cü, 20.1.4-cü, 20.1.5-1-ci, 20.1.6-cı, 20.1.7-ci, 20.1.9-cu, 20.1.14-cü, 20.1.16-cı, 20.1.18-ci, 20.1.20-ci, 20.3-cü və 20.22-ci maddələrdə "I dərəcə" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin;

1.9. 20.16.1-ci və 20.16.2-ci maddələrdə "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə, "II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə və "III dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.10. 21.2.4-cü maddədə "I dərəcə əlilliyi olan şəxsə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri ilə əvəz edilsin;

1.11. 21.2.6-cı maddədə "I və II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.12. 36-cı maddə üzrə:

1.12.1. adında "Əlillik dərəcəsi" sözləri "Orqanizmin funksiyalarının pozulması faizi" sözləri ilə əvəz edilsin;

1.12.2. 36.1-ci maddədə "Əlillik dərəcəsi" sözləri "Orqanizmin funksiyalarının pozulması faizi" sözləri ilə və "əlillik dərəcəsinin" sözləri "orqanizmin funksiyalarının pozulması faizinin" sözləri ilə əvəz edilsin;

1.13. 37.5-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386; 2019, № 3, maddə 381, № 5, maddə 797, № 8, maddə 1382; 2020, № 7, maddə 831, № 11, maddə 1335; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddə üzrə:

1.1.1. 1.0.2-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" sözləri çıxarılsın;

1.1.2. 1.0.3-cü maddədən ", müyəssərliyə nail olmaq üçün" sözləri çıxarılsın;

1.1.3. 1.0.4-cü maddəyə "zəruri" sözündən əvvəl "hər bir konkret halda" sözləri əlavə edilsin;

1.1.4. 1.0.11-ci maddədə "etdirməklə" sözü "etdirmək, habelə əlilliyi olan şəxsdə olmayan bacarıqların öyrədilməsi yolu ilə" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü maddə üzrə:

1.2.1. 3.1-ci maddədə "əlilliyinin səbəbi, dərəcəsi" sözləri "orqanizminin funksiyalarının pozulması faizi, səbəbi" sözləri ilə və "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin, həmin maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şəxsin əlilliyinin qiymətləndirilməsi, o cümlədən əlilliyin təkrar qiymətləndirilməsi onun tibbi-sosial ekspertiza müayinəsinə göndərişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu tarixdən 10 (on) iş günü müddətində, əlavə araşdırma tələb edildiyi halda isə 15 (on beş) iş günü müddətinə uzadılmaqla keçirilir.";

1.2.2. 3.3 - 3.6-cı maddələrdə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.3. 5-ci maddə üzrə:

1.3.1. 5.0.1-ci maddədə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.3.2. 5.0.2-ci və 5.0.3-cü maddələrdə "əlilliyinin növündən, formasından və ağırlıq" sözləri "orqanizmin funksiyalarının pozulması faizindən, əlilliyin növündən və insanın həyat fəaliyyətinin məhdudlaşma" sözləri ilə əvəz edilsin;

1.4. 9.1-ci maddədə "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlillik" sözü ilə əvəz edilsin;

1.5. 11.4-cü maddənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri ismin müvafiq hallarında "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin;

1.6. 13.1-ci maddədən ", onların infrastrukturlardan sərbəst istifadə etməsi üçün ağlabatan uyğunlaşma" sözləri çıxarılsın;

1.7. 15.1-ci və 15.2-ci maddələrdən "ağlabatan" sözü çıxarılsın;

1.8. 18-ci maddə üzrə:

1.8.1. adında "Sağlamlıq imkanları məhdud uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.8.2. 18.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"18.1. 18 yaşınadək əlilliyi müəyyən edilmiş məktəbəqədər yaşda olan uşaqların təlim və tərbiyəsi bu Qanunun 11-ci maddəsinə əsasən təsdiq edilmiş Fərdi Reabilitasiya Proqramı nəzərə alınmaqla həyata keçirilir.";

1.8.3. 18.2-ci maddədə "sağlamlıq imkanları məhdud uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.8.4. 18.3-cü maddədə "sağlamlıq imkanları məhdud uşaqları" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsləri" sözləri ilə əvəz edilsin;

1.9. 19-cu maddə üzrə:

1.9.1. adında "sağlamlıq imkanları məhdud uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.9.2. 19.1-ci maddədə "sağlamlıq imkanları məhdud uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə, "orqanı tərəfindən" sözləri "orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

1.9.3. 19.2-ci maddə ləğv edilsin;

1.10. 24.5-ci maddədə "I və II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.11. 32.3-cü maddədə "sağlamlıq imkanları məhdud uşaqlar" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinin birinci, ikinci və üçüncü cümlələrində, 3.3-cü,

3.4-cü, 3.5-ci (birinci halda), 3.6-cı və 19.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3.1-ci maddəsinin üçüncü cümləsində, 3.4-cü və 3.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 3.1-ci maddəsinin ikinci cümləsində və 3.5-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 19.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 3.1-ci maddəsinin birinci cümləsində və 3.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 11.4-cü maddəsinin birinci və ikinci cümlələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi həyata keçirir.

2. Azərbaycan Respublikası Prezidentinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499, № 11, maddə 2239; 2019, № 7, maddə 1217; 2020, № 7, maddə 861; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1358 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə "8.3-cü maddəsində (hər iki halda)" sözləri "3.1-ci maddəsinin birinci, ikinci və üçüncü cümlələrində, 3.3-cü, 3.4-cü, 3.5-ci (birinci halda),

3.6-cı, 8.3-cü maddəsində (hər iki halda), 19.1-ci" sözləri ilə əvəz edilsin;

2.2. 2.2-ci bənddən "3.1-ci maddəsinin ikinci cümləsində,", "3.4-cü, 3.6-cı," və "19.2-ci," sözləri çıxarılsın;

2.3. 2.2-1-ci bənddə "8.3-cü maddəsində birinci halda" sözləri "3.1-ci maddəsinin üçüncü cümləsində, 3.4-cü, 3.6-cı və 8.3-cü (birinci halda) maddələrində" sözləri ilə əvəz edilsin;

2.4. 2.4-cü bənddən "3.1-ci maddəsinin birinci cümləsində, 3.3-cü, 3.5-ci (birinci halda)" və "11.4-cü maddəsinin birinci və ikinci cümlələrində," sözləri çıxarılsın;

2.5. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. həmin Qanunun 11.4-cü maddəsinin birinci və ikinci cümlələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi həyata keçirir;";

2.6. 2.10-cu bənd ləğv edilsin;

2.7. 2.12-ci bənddə "20.3-cü maddəsində" sözləri "3.1-ci maddəsinin ikinci cümləsində, 3.5-ci (birinci halda) və 20.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

2.8. 2.12-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.13-cü və 2.14-cü bəndlər əlavə edilsin:

"2.13. həmin Qanunun 3.1-ci maddəsinin birinci cümləsində və 3.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur;

2.14. həmin Qanunun 19.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. üç ay müddətində:

3.1.1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq əlilliyin müəyyən olunması meyarlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.2. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2021-ci il*

# "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddələr 282, 293; 2001, № 12, maddə 731; 2003, № 10, maddə 539; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561; 2008, № 7, maddə 602; 2016, № 11, maddə 1764; 2019, № 5, maddə 797; 2020, № 7, maddə 826; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanunu) 1-ci maddəsinin ikinci hissəsinin ikinci abzasında "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; 2020, № 5, maddə 521, № 6, maddə 667, № 7, maddə 826, № 8, maddə 1015, № 12 (I kitab), maddə 1450) 14.5.1-1.9-cu maddəsində "I və II dərəcə əlilliyi olan şəxslər, həmçinin sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486, № 11, maddə 1277, № 12, maddə 1444; 2016, № 2 (I kitab), maddələr 197, 216, № 3, maddə 400, № 5, maddə 838; 2017, № 10, maddə 1770; 2018, № 1, maddə 15, № 7 (I kitab), maddə 1426; 2020, № 7, maddə 828) 27-ci maddəsinin birinci hissəsinin 2-ci bəndindən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 4.** "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 575; 2008, № 7, maddə 602; 2017, № 1, maddə 17; 2020, № 7, maddə 828) 2-ci maddəsində "I və II dərəcə əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 506; 2006, № 3, maddə 223; 2007, № 6, maddə 560; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2014, № 4, maddə 336; 2015, № 4, maddə 351; 2019, № 1, maddə 36; 2020, № 7, maddə 828) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 8.1.2-ci maddədə "I dərəcə əlillik" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyin müəyyən edilməsinə görə" sözləri ilə əvəz edilsin;

5.2. 8.1.3-cü maddədə "II dərəcə əlillik" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyin müəyyən edilməsinə görə" sözləri ilə əvəz edilsin;

5.3. 8.1.4-cü maddədə "III dərəcə əlillik" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyin müəyyən edilməsinə görə" sözləri ilə əvəz edilsin;

5.4. 8.1.5-ci maddədən "dərəcəsi" sözü çıxarılsın.

**Maddə 6.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815, № 6, maddə 999, № 8, maddə 1362; 2020, № 7, maddələr 822, 830) 14.2.3-cü maddəsindən "o cümlədən, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 7.** "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 559; 2008, № 7, maddə 602; 2014, № 4, maddə 334; 2017, № 5, maddə 688; 2019, № 7, maddə 1178; 2020, № 7, maddə 830) 13.4-cü maddəsindən "o cümlədən sağlamlıq imkanlarının məhdudluğu," sözləri çıxarılsın.

**Maddə 8.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088; 2018, № 7 (I kitab), maddə 1382; 2019, № 3, maddə 379; 2020, № 6, maddə 670, № 7, maddə 830) 10.4-cü maddəsində "birinci və ikinci dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987; 2018, № 10, maddə 1979, № 11, maddə 2226; 2019, № 4, maddə 579, № 11, maddə 1685; 2020, № 7, maddə 831; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) 25.1-ci maddəsinin dördüncü cümləsində "I və ya II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 19.0.14-cü maddədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

1.2. 23.3-cü maddədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna" sözləri çıxarılsın.

**Maddə 2.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117) 11.1.3-cü maddəsində "birinci dərəcə əlilliyi olan işləməyən şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511; 2018, № 2, maddə 151, № 5, maddələr 853, 867, № 7 (I kitab), maddə 1424, № 8, maddə 1674, № 12 (I kitab), maddə 2528; 2019, № 1, maddə 21, № 2, maddə 203, № 6, maddə 999; 2020, № 7, maddələr 828, 856; Azərbaycan Respublikasının 2021-ci il 13 aprel tarixli 292-VIQD nömrəli Qanunu) 68.1.3-cü maddəsində "birinci dərəcə əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582, № 8, maddə 1382, № 11, maddə 1684; 2020, № 6, maddə 670, № 7, maddə 828; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 303-VIQD nömrəli Qanunu) 1.0.6-cı maddəsindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək olan" sözləri çıxarılsın.

**Maddə 5.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884; 2019, № 11, maddə 1690; 2020, № 7, maddə 829) 26.5-ci maddəsindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın.

**Maddə 6.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.0.21-ci, 1.0.24-cü, 11.4-cü, 16.1-ci maddələrdən, 22-ci maddənin adından, 22.2-ci, 22.3-cü, 22.4-cü və 22.7-ci maddələrdən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri çıxarılsın;

6.2. 3.0.4-cü, 4.0.9-cu, 5.0.13-cü, 22.1-ci, 22.5-ci və 22.6-cı maddələrdən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın;

6.3. 16.6.2-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları" sözləri çıxarılsın;

6.4. 58.3-cü maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın.

**Maddə 7.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2014-cü il 11 aprel tarixli 149 nömrəli, “Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli və “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365, № 6, maddə 637; 2015, № 3, maddə 272; 2018, № 5, maddə 899; 2020, № 9, maddə 1149; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1373 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.0.2-ci yarımbənddə “(texnoloji itkilərin və sərfin azaldılması, qənaətli və daha çox fayda ilə istifadə)” sözləri “və enerji effektivliyi” sözləri ilə əvəz edilsin;

1.2. 3.0.5-ci yarımbənddə “Enerji resurslarından istifadə haqqında” sözləri “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” sözləri ilə əvəz edilsin;

1.3. 3.0.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.0.10. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq enerji auditinin həyata keçirilməsi üçün fiziki şəxslərə ixtisas attestatı verir, habelə enerji idarəçisinin (menecerinin) attestasiyadan keçirilməsində iştirak edir;”;

1.4. aşağıdakı məzmunda 3.0.10-1-ci yarımbənd əlavə edilsin:

“3.0.10-1. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrini aparır və onların fəaliyyətinə nəzarət edir;”;

1.5. 3.0.19 - 3.0.21-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“3.0.19. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətini həyata keçirir;

3.0.20. enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin dairəsini müəyyən edir və bu sahədə müvafiq tədbirlərinin həyata keçirilməsini təmin edir;

3.0.21. enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin enerji effektivliyi fondundan maliyyələşdirilməsi üçün təkliflər verir;”;

1.6. 4.0.8-ci yarımbəndə “istifadə” sözündən sonra “və enerji effektivliyi” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318; 2018, № 5, maddə 956; 2020, № 8, maddə 1041) ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2.3-cü yarımbəndə “istifadənin” sözündən sonra “və enerji effektivliyinin” sözləri əlavə edilsin;

2.2. 3.1.9-cu yarımbənddə “elektrik, istilik enerjisi və qaz” sözləri “enerji” sözü ilə əvəz edilsin;

2.3. 3.1.34-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.34. effektivlik potensialının qiymətləndirilməsi əsasında enerji effektivliyi üzrə tədbirləri həyata keçirir;”.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490; 2020, № 7, maddə 896; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 iyul tarixli 1395 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbəndə “istifadəsinə” sözündən sonra “və enerji effektivliyinə” sözləri əlavə edilsin;

3.2. 2.1.4-cü yarımbənd ləğv edilsin;

3.3. 2.2-ci bənddə “Enerjiyə qənaət və enerji resurslarından səmərəli istifadəyə” sözləri “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinə” sözləri ilə əvəz edilsin;

3.4. 2.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.2.6-cı yarımbənd əlavə edilsin;

“2.2.6. effektivlik potensialının qiymətləndirilməsi əsasında enerji effektivliyinin təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi.”.

4. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2011-ci il 16 fevral tarixli 386 nömrəli, “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın təsdiq edilməsi haqqında” 2012-ci il 8 may tarixli 626 nömrəli, “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” 2013-cü il 29 avqust tarixli 973 nömrəli və “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 795; 2011, № 12, maddə 1140; 2013, № 8, maddə 895; 2014, № 3, maddə 250; № 1, maddə 68; 2018, № 5, maddə 937; 2019, № 4, maddə 639; 2020, № 12 (I kitab), maddə 1492) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

1.2. 1.2-ci bənddə “II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

1.3. 1.3-cü bənddə “III dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

2. “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddən, 2.1.3-cü, 3.1.49-cu (hər iki halda), 3.1.50-ci, 3.1.51-ci və 3.1.53-cü yarımbəndlərdən ismin müvafiq hallarında “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri çıxarılsın;

2.2. 3.1.22-ci yarımbənddə “dərəcəsini” sözü “faizini” sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1351 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.3.8-ci yarımbənddən “18 yaşınadək” sözləri çıxarılsın;

3.2. 2.5.1-ci, 2.5.2-ci, 2.5.3-cü (hər iki halda), 2.5.4-cü, 2.5.5-ci, 2.5.6-cı və 2.6.3-cü yarımbəndlərdə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

4. “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454, № 4, maddə 640; 2020, № 11, maddə 1361) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1.2-ci yarımbənd üzrə:

4.1.1. ikinci abzasda “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.1.2. üçüncü abzasda “II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.1.3. dördüncü abzasda “III dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.2. 1.1.3-cü yarımbənd üzrə:

4.2.1. ikinci abzasda “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.2.2. üçüncü abzasda “II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.2.3. dördüncü abzasda “III dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.3. 1.1.4-cü yarımbənd üzrə:

4.3.1. ikinci abzasda “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.3.2. üçüncü abzasda “II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.3.3. dördüncü abzasda “III dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4.4. 1.1.5-ci yarımbənd ləğv edilsin;

4.5. 1.1.12-ci yarımbənddə (hər iki halda) “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

5. “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyun tarixli 1364 nömrəli və 17 iyun tarixli 1368 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası”nın 3.3-cü bəndinin birinci abzasından “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların (bundan sonra - əlilliyi olan şəxs)” sözləri çıxarılsın;

5.2. həmin Fərmanla təsdiq edilmiş “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı” üzrə:

5.2.1. 3-cü hissə üzrə:

1. adından “və sağlamlıq imkanlarının məhdudluğu” sözləri çıxarılsın;

2. 3.1-ci bənddən “, o cümlədən 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunun müəyyən edilməsi” sözləri çıxarılsın;

3. 3.4-cü bənddən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri çıxarılsın;

5.2.2. 5-ci hissə üzrə:

1. 5.1.1-ci yarımbəndin 4-cü abzasında “sağlamlıq imkanları məhdud” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

2. 5.2.2-ci yarımbəndin 4-1-ci abzasında “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin və həmin yarımbəndin 5-ci abzası ləğv edilsin;

3. 8.2-ci bənddə “sağlamlıq imkanları məhdud” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

5.2.3. 10.1-ci bənddə “sağlamlıq imkanlarının məhdudluğu” sözləri “əlilliyi” sözü ilə əvəz edilsin;

5.2.4. 7-ci hissə üzrə:

1. 7.9-cu və 7.11-ci bəndlərdə “I dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

2. 7.9-1-ci bənddə “I dərəcə gözdən əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3. 7.12-ci bənddə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

5.2.5. 9.8-ci bənddə “sağlamlıq imkanları məhdud” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

6. Bu Fərman 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizədə KİV-in rolu mövzusunda tədbir keçirilib



Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun iştirakı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizədə kütləvi informasiya vasitələrinin rolu” mövzusunda Azərbaycan Respublikası Nazirlər Kabinetində görüş keçirilib.

Dövlət Komissiyasının İşçi qrupundan AZƏRTAC-a bildiriblər ki, tədbirdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı KİV tərəfindən həyata keçirilməsi nəzərdə tutulan işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Görüşdə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov çıxış edərək bildirib ki, narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin müasir cəmiyyətin üzləşdiyi ən ciddi və təhlükəli qlobal problemlərdən biridir. Bütövlükdə bəşəriyyətin müasir gündəliyində duran ən vacib məsələ narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı səmərəli mübarizənin təşkil edilməsidir. Ölkəmizdə də narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin dövlət səviyyəsinə qaldırılması, ölkə ərazisində hüquq mühafizə orqanlarının fəaliyyətinin səmərəsi artırılaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı müsbət nəticələrin əldə olunması və bu istiqamətdə aparılan təbliğat-təşviqat, maarifləndirmə işlərinin KİV-in imkanlarından istifadə edilərək səmərəliliyinin daha da artırılmasının zəruriliyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Digər çıxış edənlər narkomanlığa qarşı müasir informasiya vasitələrinin imkanlarından istifadə etməklə keçirilməsi nəzərdə tutulan maarifləndirmə tədbirlərinə dair təşəbbüsləri dəstəkləyərək, narkomanlığın ailədə və cəmiyyətdə doğurduğu arzuolunmaz nəticələr barədə KİV tərəfindən geniş maarifləndirmə işinin aparılmasının əhəmiyyətini vurğulayıblar.

Görüşün yekununda antinarkotik təbliğatın təşkili istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi, narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı problemlər haqqında vətəndaşlar arasında maarifləndirmə işinin aparılması məqsədilə aidiyyəti dövlət qurumları tərəfindən sosial çarxların hazırlanması və KİV tərəfindən geniş işıqlandırılması, narkomanlığın zərəri ilə bağlı sənədli filmlərin və süjetlərin çəkilməsi, problemin mahiyyətini ifadə edən müəllif yazılarının və araşdırmalarının hazırlanması, aidiyyəti dövlət orqanlarının mütəxəssislərini cəlb etməklə xüsusi verilişlərin təşkilinə dair müvafiq tövsiyələr verilib və qərarlar qəbul olunub.

# Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli 2288 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”nda, 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda, 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nda, 2018-ci il 9 avqust tarixli 393 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nda və 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli 2288 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 724; 2008, № 5, maddə 373; 2010, № 2, maddə 80; 2020, № 8, maddə 1064) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”nın III hissəsinin dördüncü abzasından “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217; 2012, № 12, maddə 1322; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2378; 2019, № 2, maddə 257, № 5, maddə 877; 2020, № 8, maddə 1064; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 2673 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın 2.8-ci bəndində “o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “habelə sağlamlıq imkanları məhdud” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 161; 2020, № 8, maddə 1064; 2021, № 1, maddə 80) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın 5.2-ci bəndinin yeddinci abzasında “o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “habelə sağlamlıq imkanları məhdud” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 393 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1727; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 2673 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın 1-ci hissəsinin ikinci abzasında və 2.1-ci bəndində “sağlamlıq imkanları məhdudluğunun” sözləri “əlilliyin” sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 723) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissənin dördüncü abzasında “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

5.2. 2-ci hissə üzrə:

5.2.1. doqquzuncu abzasın ikinci və üçüncü cümlələrində “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə, beşinci cümləsində “sağlamlıq imkanları məhdudluğunun” sözləri “əlilliyin” sözü ilə əvəz edilsin;

5.2.2. on beşinci abzasdan hər iki halda “18 yaşınadək” sözləri çıxarılsın;

5.3. 4-cü hissə üzrə:

5.3.1. 4.2.7-ci yarımbənddə “sağlamlıq imkanlarının məhdudluğuna” sözləri “əlilliyə” sözü ilə əvəz edilsin;

5.3.2. 4.3.1-ci, 4.3.3-cü, 4.4.7-ci və 4.4.11-ci yarımbəndlərdə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

5.3.3. 4.3.5-ci yarımbənddə “sağlamlıq imkanları məhdud” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

6. Bu Sərəncam 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

# Biz birlikdə güclüyük!

## “Bu gün Azərbaycanda kifayət qədər vaksin ehtiyatı var”

“Azərbaycanda yeni növ koronavirus infeksiyasına qarşı dörd vaksin tətbiq olunur. Vaksin seçimi vətəndaşlar tərəfindən edilə bilər”.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib. Bu gün Azərbaycanda kifayət qədər vaksin ehtiyatının olduğunu söyləyən Prezidentin köməkçisi bildirib ki, bu, ilin sonuna kimi kifayət edəcək. Bu gün isə növbəti il üçün vaksinlərin ölkəyə gətirilməsi ilə bağlı danışıqlar aparılır.

Şahmar Mövsümov qeyd edib ki, hər bir vətəndaş atdığı addımlara məsuliyyətlə yanaşsa, vaksinasiya prosesində uğur əldə ediləcək. Bu gün bizdə xəstəxanalarda ciddi təzyiqin olmamasına səbəb peyvəndlənmədir. “Hazırda ölkəmizdə peyvəndlənmə səviyyəsi 24 faizdir. Biz bunu 60 faizə qaldıra bilsək, Azərbaycanda pandemiya bitəcək. Ona görə hər kəsi peyvəndlənməyə çağırırıq”, - deyə Prezidentin köməkçisi vurğulayıb.




## *Şahmar MÖVSÜMOV:* “Vaksinin effektiv və təhlükəsiz olması heç kəsdə şübhə doğurmamalıdır”

**“Artıq 6 milyona yaxın doza vurulub və hər hansı bir fəsad yoxdur. Heç kimdə vaksinə görə hər hansı xəstəlik, problem meydana gəlməyib. Bir sözlə, peyvənd effektivdir. Bunu biz rəqəmlərdə də görürük”.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib.

Prezidentin köməkçisi qeyd edib ki, vəziyyətdən yeganə çıxış yolu peyvəndlənmədir. Hamı özünü və yaxınlarını qorumaq üçün peyvəndlənməyə getməlidir. Bu gün peyvəndin təhlükəsiz və effektiv olması barədə tam ətraflı məlumat verildi. “Biz peyvəndlənmə prosesinə başlayanda təbii ki, elmi məqalələrə, elmi işlərə əsaslanmışıq. Bütün dünya ölkələri də bunu edirdi. Artıq bizim əlimizdə olan rəqəmlər nəzəriyyə deyil, elmi məqalə deyil, bu konkret faktlardır. Görünən odur ki, koronavirusdan ölənlərin 99 faizi vaksin vurdurmayan insanlardır. Vaksin olunanlar arasında yoluxanlar cəmi 0,6 faizdir. Vaksinin effektiv və təhlükəsiz olması artıq heç kəsdə şübhə doğurmamalıdır. Artıq bu nəzəriyyə deyil, faktdır”, - deyə Şahmar Mövsümov əlavə edib.

## “Saxta vaksin pasportu alan insanlar özlərinin, yaxınlarının həyatlarını təhlükə altına atırlar”

“Bu gün burada saxta vaksin pasportları verən həkimlər haqqında da danışıldı. Təəssüf ki, belələri var. Bizdə də hazırda reanimasiyada olan insanlar var ki, əllərində vaksin olunması ilə bağlı pasportu var”.

Bir neçə halda istintaq əməliyyatları və sorğu-suallar nəticəsində bəlli olub ki, həmin insanlar saxta pasportla özlərini peyvənd olunmuş kimi təqdim ediblər. Amma faktiki olaraq onlara peyvənd vurulmayıb. Bu gün onlar reanimasiyada ağır vəziyyətdədirlər.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Prezidentinin köməkçisi Şahmar Mövsümov məlumat verib. “Təsəvvür edin, insan öz əli ilə pul verib saxta pasport alıb və bu gün onun həyatı böyük təhlükə altındadır. Təbii ki, bütün bunlar araşdırılır və müxtəlif səhiyyə müəssisələri ilə bağlı cinayət işləri açılıb. Bütün bunlar xoşagəlməz hallardır. İnsanlar nəinki öz həyatlarını, yaxınlarının, əzizlərinin həyatlarını da təhlükə altına atırlar, həm də dövlətin siyasətinə xələl gətirirlər. Buna hansısa əsas gətirmək qeyri-mümkündür. Təbii ki, bütün müvafiq dövlət orqanları bu cür hallara qarşı mübarizəni davam edəcəklər”, - deyə Prezidentin köməkçisi vurğulayıb.

## “Sentyabrın 15-dən məktəblərdə ənənəvi tədrisin bərpası nəzərdə tutulur”

**“Sentyabrın 15-dən məktəblərdə ənənəvi tədrisin bərpası nəzərdə tutulur”.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib.

O bildirib ki, ənənəvi tədrisin bərpası sentyabrın 15-nə olan epidemioloji vəziyyətdən asılıdır.

## “Hazırda Azərbaycanda sürətlə yayılan koronavirusun “delta” ştamıdır”

Hazırda Azərbaycanda sürətlə yayılan yeni növ koronavirus (COVID-19) infeksiyasının “delta” ştamıdır. Virus infeksiyalarında mutasiyalar baş verdikdə infeksiya mövsümi xarakter daşıyır.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

O bildirib ki, respublikada hazırkı epidemioloji vəziyyətə səbəb koronavirusun “delta” ştamıdır: “Lakin digər ştamlarla müqayisədə “delta” ilə yoluxma zamanı da xüsusi kliniki fərqlər müşahidə edilmir”.

Məlumata əsasən, hazırda Azərbaycanda koronavirus infeksiyası ilə xəstələnənlərin 94 faizi “delta” ştamı ilə yoluxub.

Y.Qarayeva, həmçinin peyvəndlər barədə danışıb: “Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 4 növ peyvənddən istifadə edilir. Hər bir vaksin preparatının effektivliyi istehsalçı şirkətlərin həmin peyvəndləri Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) təqdim etdiyi vaxtdan məlumdur. Yeni vaksinlərin səmərəliliyi ilə əlaqədar göstəricilər ictimaiyyətə məlumdur, bu rəqəmlər heç vaxt gizli saxlanılmayıb. Ümumiyyətlə tarixboyu istifadə edilən vaksinlərin heç birinin effektivliyi 100 faiz olmayıb. Əsas odur ki, bu gün COVID-19 əleyhinə vurulan peyvəndlərin effektivlik faizi ÜST tərəfindən qoyulan tələblərə uyğundur”.

Qeyd edək ki, Azərbaycanda koronavirus əleyhinə “SinoVac”, “AstraZeneca”, “Sputnik V” və “Pfizer” peyvəndlərindən istifadə edilir.

## Reanimasiyada koronavirus müalicəsi alanların 96 faizi peyvənd olunmayanlardır

“Bu ilin mart ayından etibarən yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxanlar arasında reanimasiyada müalicə alanların 96 faizi peyvənd olunmayanlardır”.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib. O bildirib ki, süni nəfəs aparatına qoşulan xəstələrin də 97 faizi vaksinasiyadan keçməyənlərdir: “COVID-19 xəstəliyindən həyatını itirənlərin də 99 faizinin peyvənd vurdurmadığı aşkarlanıb. Bu günə qədər Azərbaycanda vaksinasiyadan keçən vətəndaşlar arasında, sadəcə, 0,6 faiz yoluxma faktı aşkarlanıb. Bütün dünyada koronavirusa qarşı cəmi 788 milyon doza vaksin vurulub. ABŞ, İsrail, Almaniya, ümumiyyətlə, Avropa ölkələri, Rusiya və Türkiyədə əhali daha çox vaksin olunub. Azərbaycanda 6 milyon doza vaksin vurulsa da, 2 dozanı qəbul etmiş vətəndaşların sayı əsas götürülür. Bu o deməkdir ki, ölkə əhalisinin 24 faizi peyvəndlənib”.

Qeyd edək ki, Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 5 milyon 991 min 16, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 574 min 157, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı isə 2 milyon 416 min 859 nəfərdir.

## “Koronavirusa yoluxma əmsalı son günlər 23 faizə çatıb”

2021-ci il avqustun 20-nə olan statistikaya əsasən, dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma sayı 210 milyon, xəstəlikdən vəfat edənlərin sayı isə təxminən 4 milyondur. Dünya üzrə gündəlik yoluxma sayı 722 minə yaxındır. Ən çox yoluxma qeydə alınan ölkələr arasında ABŞ, Hindistan və Braziliyanın adları çəkilir.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib. O bildirib ki, Azərbaycanda da son günlər COVID-19-a yoluxmada kəskin artım müşahidə edilir: “Artım dinamikasında önəmli olan yoluxma əmsalıdır. Əgər avqustun əvvəlində ölkədə koronavirusa yoluxma əmsalı 7 faizə yaxın idisə, indi bu göstərici 23 faizdir. Bu, son 20 gün ərzində ciddi artımın olduğuna işarədir”.

Y.Qarayeva qeyd edib ki, hazırda ölkədə 18 pandemiya müəssisəsi fəaliyyət göstərir: “Onların 11-i Bakı, Abşeron və Sumqayıtda, 7-si isə regionlarda yerləşir. Bundan başqa, ehtiyat tibb müəssisələri mövcuddur. İstənilən halda, biz bütün qaydalara ciddi şəkildə riayət etməliyik. Ehtiyat tibb müəssisələrinin mövcudluğu bizi arxayın etməməlidir. Həmin tibb müəssisələrinin əksəriyyəti rayon mərkəzi xəstəxanalarıdır. Əgər həmin xəstəxanalarda yalnız COVID xəstələri qəbul edilərsə, əhalinin normal tibbi ehtiyaclarını ödəməkdə çətinlik yaranar”.

## “Valideynlərin və uşaqların vaksinasiya olunması ilə bağlı tələb yoxdur”

“Valideynlərin və uşaqların vaksinasiya olunması ilə bağlı hər hansı bir tələb yoxdur”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib.

O bildirib ki, təhsil sistemində işləyənlərin vaksinasiya olunması tələbi var.

Ancaq təhsil sistemində işləyənlərin vaksinasiya olunması tələbi var. Onların ən azı 80 faizi peyvənd olunmalıdır.

O bildirib ki, sentyabrın 15-dən məktəblərdə ənənəvi tədrisin bərpası nəzərdə tutulur. Lakin ənənəvi tədrisin bərpası sentyabrın əvvəlinə olan epidemioloji vəziyyətdən asılıdır.

## Koronavirus əleyhinə tədbirlər davam edir

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Lerik rayonunda tədbirlərin həyata keçirilməsi davam edir.







Bu günlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tapşırıqlarına uyğun olaraq Lerik şəhərində çoxmənzilli yaşayış binalarının həyətləri və pilləkən qəfəslərində, küçələrdə, idarə və müəssisələrin inzibati binalarında, uşaq bağçaları, təhsil ocaqları və məscidlərdə tibbi-profilaktik dezinfeksiya işləri aparılmışdır.

Mütəmadi olaraq onlayn qaydada rayon icra hakimiyyətinin başçısı yanında fəaliyyət göstərən qərargahın iclasları keçirilir, mövcud vəziyyət təhlil edilir, ərazi icra nümayəndəliklərində yaradılmış mobil qrupların fəaliyyətləri nəzarətdə saxlanılır, yoluxma hallarının qarşısının alınması üçün zəruri operativ tədbirlər həyata keçirilir. Peyvəndləmə işləri ilə bağlı maarifləndirmə işləri də aparılır və əhalinin peyvəndə cəlb edilməsi daim nəzarətdə saxlanılır.

Bunlardan əlavə, qərargahın üzvləri rayon polis şöbəsinin əməkdaşlarının iştirakı ilə ticarət və iaşə obyektlərinə, idarə və müəssisələrə reydlər təşkil edir, xüsusi karantin rejimi qaydalarını pozan hüquqi və fiziki şəxslər cərimələnir, ticarət və iaşə obyekti sahiblərinə, idarə rəhbərlərinə xəbərdarlıqlar olunur. Eləcə də bütün yaşayış məntəqələrində dəfn mərasimlərində kütləvi toplanmanın qarşısının alınması üçün zəruri tədbirlər həyata keçirilir.

***S.CAVADOV, “Azərbaycan”***




## Koronavirus xəstələrinin qidalanmasına dair təlimat hazırlanıb

“Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxan xəstələrin qidalanmasına dair təlimat hazırlanıb. Təlimatın yaxın günlərdə müvafiq xəstəxanalara paylanılması nəzərdə tutulub”.

AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Qida təminatı və nəzarəti şöbəsinin baş mütəxəssisi Şumarə Qaracayeva deyib.

Bildirib ki, koronavirus xəstələrinin qida rasionu immun sistemini gücləndirməyə əsaslanmalıdır: ”Qida menyusu xəstəliyin müəyyən mərhələləri üçün fərqli tərtib edilir. Koronavirus xəstələrinin xəstəxana şəraitində müalicəsi zamanı parenteral və enteral qidalanma növlərindən istifadə edilir. Oral qidalanma mümkün olmadıqda, xəstə ya zond, ya da müxtəlif vitamin və minerallarla zəngin ”kokteyl”lərin venadaxili yeridilməsi vasitəsilə qidalandırılır. Ölkədə COVID-19-a yoluxmuş xəstələrin stasionar şəraitdə qidalanma qaydalarına tam riayət olunur. Evə buraxılan xəstələrə isə qidalanmaya dair təlimat kitabçaları təqdim edilir. Biz həkimləri və vətəndaşları təlimatlandırmağa çalışırıq. Koronavirus xəstələrinə isə bol meyvə-tərəvəzdən istifadə etmək məsləhət görülür. Həmçinin zülal tərkibli qidalar immun sistemini gücləndirdiyinə görə qida rasionuna daxil edilməlidir. Müalicəvi qidalardan istifadə etmək lazımdır. Təəssüf ki, bəzən vətəndaşlar koronavirus əleyhinə peyvənd vurdurduqdan sonra allergiya yaradacaq qida qəbul edir və nəticədə yaranmış allergik reaksiyanı vaksinlə əlaqələndirirlər. Vaksinasiyadan sonra şokolad və spirtli içkinin qəbulu, ümumiyyətlə, məsləhət görülmür”.



# Əlahiddə Ümumqoşun Ordunun minaatan bölmələrində döyüş hazırlığı məşğələləri keçirilir




Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun minaatan bölmələrində döyüş hazırlığı məşğələləri keçirilir.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, gənc heyətlərə müxtəlif çaplı minaatanların təyinatı və taktiki-texniki göstəriciləri haqqında ümumi məlumat verilən məşğələlərdə minaatan heyətlərinin ixtisas hazırlığı artırılır və döyüş vərdişləri təkmilləşdirilir. Məşğələlərdə bölmələrin atəş mövqelərini və komanda müşahidə məntəqələrini tutması, minaatan qurğularının döyüşə və səfərə gətirilməsi, tuşlanması, doldurulması və döyüş atışının icra olunması məşq etdirilir. Şəxsi heyətin funksional vəzifələrinin icrasına və ixtisas hazırlığı üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilən məşğələlərdə bölmələr döyüş tətbiqinə hazırlanaraq planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirirlər.

Minaatan bölmələrində döyüş hazırlığı məşğələləri plana uyğun davam edir.

# "Artilleriya atəşinin ustaları" müsabiqəsində iştirak edəcək komandamız Qazaxıstana gedib



Topçularımız "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsində iştirak etmək üçün Qazaxıstana səfər ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qazaxıstanın Almatı şəhərində komandamıza müsabiqənin qaydaları və şərtləri ilə tanışlıq məqsədilə brifinq təqdim olunub.

Artilleriyaçılarımız müsabiqəyə 22 nəfərlik heyətlə qatılacaq.

# "Dəniz Kuboku" müsabiqəsində iştirak edən hərbi dənizçilərimiz İrandadır

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində "Dəniz Kuboku" müsabiqəsində iştirak etmək üçün yola düşən Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi qulluqçuları İranın Ənzəli şəhərində qarşılanıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşılanma mərasimində İran Hərbi Dəniz Donanmasının nümayəndə heyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Hər iki ölkənin Dövlət Himni səsləndirildikdən sonra İran İslam Respublikasının nümayəndə heyətinin rəhbəri birinci dərəcəli kapitan Muhəmməd Vəkili hərbi dənizçilərimizi salamlayaraq onları ölkələrində görməkdən məmnunluğunu ifadə edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri birinci dərəcəli kapitan Həbib Xəlilov təntənəli qarşılanmaya və göstərilən diqqətə görə iranlı həmkarına minnətdarlığını bildirib. Sonda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# Qarabağ dünyanın ən "ağıllı" layihələri ilə yenidən qurulur

*Əvvəli 1-ci səh.*

"Ağıllı kənd" və "Ağıllı şəhər"də hər hansı məlumatı toplamaq üçün müxtəlif elektron və rəqəmsal metodlardan, sensorlardan istifadə ediləcək. Əldə olunan məlumat aktivlərin və resursların səmərəli istifadəsinə yönləndiriləcək.

Bu konsepsiyada "Əşyaların interneti", "Süni intellekt", "Blokçeyn" kimi texnologiyalar tətbiq olunur. Onun əsasında müəyyən komponentlər formalaşdırılır. Məsələn, elektrik enerjisi və su sərfiyyatının elektronlaşdırılıb müəyyən edilmiş yerlərdə toplanmasını misal göstərmək olar. Nəticədə əhali enerji sərf etmədən proqram təminatından istifadə edərək həm öz kommunal tarixçəsini görür, həm də ödənişlərini edir. Dövlət qurumları isə məlumat bazasında yığılan informasiya əsasında optimallaşdırma işləri aparmaq imkanı qazanır. Bütün bu elektronlaşdırma tətbiqi tibb və nəqliyyat sahəsi üçün də keçərlidir. O cümlədən naqilsiz sensor şəbəkələri vasitəsilə şəhər ərazisində çirklənməni elektron xəritə üzərindən müşahidə etmək mümkündür ki, bu da qabaqlayıcı tədbirlər görməyə imkan yaradır.

İlk addım Prezidentin ötən il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı atıldı. Səfər zamanı Füzuli - Şuşa, yeni "Zəfər yolu"nun təməli qoyuldu. Bununla da işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə start verildi. Bu ərazilərdə başlanan yenidənqurma işləri Qarabağı cənnətə çevirəcək. Prezident çıxışlarında dəfələrlə bunu vurğulayıb: "Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".

## Yeni quruculuq modeli

Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Aprelin 26-da Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoyub. Bununla da, işğaldan azad olunmuş ərazilərdə müasir çağırışlara cavab verən, beynəlxalq standartlara əsaslanan yeni quruculuq modelinin tətbiqinə başlanılıb.

Qarabağda ilk dəfə həyata keçiriləcək layihənin icrası 5 komponent üzrə aparılır. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir.

Hazırda Zəngilanda "Ağıllı kənd" layihəsi icra olunmaqdadır. Layihəyə əsasən kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Həmçinin bütün yaşayış evlərinin, sosial obyektlərin, inzibati və ictimai iaşə binalarının, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin edilməsi nəzərdə tutulub. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edirlər.

"Ağıllı şəhər" və "Ağıllı kənd" texnologiyaları vətəndaşların sağlamlığını və rifahını yüksəltməklə bərabər iqtisadi inkişaf üçün yeni yollar da təqdim edir. Bərpa olunan ərazilərdə belə texnologiyaların tətbiqi regionun inkişafını sürətləndirə və həmin regionu investorlar üçün maraqlı edə bilər. "Ağıllı şəhər" texnologiyaları böyük potensiala malik olan Qarabağ regionunda turizm sektorunu inkişaf etdirmək üçün əlavə imkanlara da yol açacaqdır.

"Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri Qarabağın şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılmasında, informasiya texnologiyalarının tətbiqi, həmçinin mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsində dayanıqlı inkişafın əsas prioritetlərindəndir. İşğaldan azad olunmuş şəhər və kəndlərdə bu layihələrin tətbiqi regionun yenidən qurulmasını və inkişafını sürətləndirəcək.

İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi başa çatdıqdan sonra yolların bərpası daha da sürətlənəcək. Bundan sonra yaşayış məntəqələri arasında gediş-gəliş və vacib təminatların çatdırılması asanlaşacaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması isə insanların həyat səviyyəsinin yaxşılaşmasına və sonrakı mərhələdə ailə-ev təsərrüfatlarının genişlənib inkişafına imkan yaradacaq.

Bir sözlə, "Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin tətbiqi Qarabağ regionunun tərəqqəsində mühüm rol oynayacaq.

***Ramilə QURBANLI,* *"Azərbaycan"***

# Ağdamda dekorativ-tətbiqi sənət nümunələrindən ibarət yaradıcılıq sərgisi açılıb






Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Heydər Əliyev Mərkəzində Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvləri Elnurə və Aygün İsgəndərova bacılarının Vətən müharibəsində qazanılan Şanlı Zəfərə həsr olunmuş "Milli-mənəvi dəyərlərimiz" adlı dekorativ-tətbiqi sənət nümunələrindən ibarət ilk fərdi yaradıcılıq sərgisi açılıb.



AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyinin, Rəssamlar İttifaqının, Ağdam Rayon İcra Hakimiyyətinin, Ağdam rayon Heydər Əliyev Mərkəzinin və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən sərgidə Elnurə və Aygün İsgəndərovaların dekorativ-tətbiqi sənət nümunələrindən ibarət 50-yə yaxın əsəri nümayiş etdirilib.

Şəhid ailələri, ictimaiyyət və media nümayəndələri, mədəniyyət işçiləri dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgi ilə, eləcə də Ağdam Rayon Tarix-Diyarşünaslıq və Rahib Məmmədov adına Döyüş Şöhrəti muzeylərinin eksponatları ilə də tanış olublar.

Sonra Heydər Əliyev Mərkəzində şəhid ailələrinin iştirakı ilə tədbir keçirilib. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov, Xalq rəssamı Arif Hüseynov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və başqaları çıxış edərək Vətən müharibəsində Azərbaycan Ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Şanlı Qələbədən danışıb, bu Zəfərə həsr olunmuş "Milli-mənəvi dəyərlərimiz" adlı dekorativ-tətbiqi sənət nümunələrindən ibarət yaradıcılıq sərgisini yüksək qiymətləndiriblər.

Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvləri Elnurə və Aygün İsgəndərova bacıları sərginin təşkilatçılarına və iştirakçılara minnətdarlıqlarını bildiriblər.

Sonda şəhid analarına diplom və hədiyyələr təqdim olunub.

Rəssam Aygün İsgəndərova AZƏRTAC-a müsahibəsində bildirib ki, fərdi yaradıcılıq sərgisi şəhid anaları və media nümayəndələri üçün nəzərdə tutulub: "Sərgidə tətbiqi sənətin sanama, bədii tikmə, şəbəkə tikmə kimi növlərinə aid nümunələr nümayiş olunur. Vətən müharibəsində qazanılan Zəfərdən sonra Ağdam Rayon Heydər Əliyev Mərkəzində belə bir sərginin keçirilməsi çox əlamətdardır".

Xalq rəssamı Arif Hüseynov isə qeyd edib ki, sərginin Qarabağda, Ağdamda keçirilməsi rəmzi xarakter daşıyır. "İstərdim ki, Azərbaycan rəssamları respublikamızın regionlarında fərdi sərgilərini açsınlar. Bugünkü sərgini çox yüksək qiymətləndirir, Elnurə və Aygün İsgəndərova bacılarına uğurlar arzulayıram", - deyə o əlavə edib.

# Şəhid və qazi övladları üçün "Xarıbülbül" yay düşərgəsi açılıb




Şamaxıda Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, "Böyük Qayıdış" Gənclər Təşkilatı və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Xarıbülbül" şəhid və qazi övladlarının yay düşərgəsinin açılış mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, açılış mərasimindən əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Şamaxı rayonunun mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar. Daha sonra Şamaxı rayon Şəhidlər xiyabanı ziyarət olunub, torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi dərin ehtiramla yad edilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Açılış mərasimi rəsmi şəxslərin, deputatların və tərəfdaş qurumların nümayəndələrinin iştirakı ilə keçirilib.

Yay düşərgəsinin açılış mərasimində İqtisadiyyat Nazirliyi yanında Dövlət Tədris Mərkəzinin rəisi səlahiyyətlərini icra edən Mirəli Kazımov, Azərbaycan Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, "Zəfər" Şəhid Ailələrinə Dəstək İB-nin sədri Sevinc Orucova, Şamaxı rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Hüseyinov, "Yaşat" Fondunun direktor müavini Rəbiyyə Cəfərova, "Böyük Qayıdış" Gənclər Təşkilatı İB-nin sədri Nail Şükürov, polkovnik-leytenant Soltan Məmmədovun övladı Ləman Məmmədova çıxış ediblər. Çıxışlarda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharətindən, güclü iradəyə malik bir rəhbər olmasından danışılıb, müzəffər Ordumuzun gücü ilə 44 günlük Vətən müharibəsində qazanılan Şanlı Qələbəmizdə milli birliyimizdən, gənclərin bu qələbədə ön və arxa cəbhədə göstərdiyi şücaətdən söz açılıb.

Bildirilib ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəmanlarımızın övladları hər birimiz üçün əmanətdir. Şəhid ailələrinə və onların övladlarına dövlət tərəfindən daim xüsusi diqqət və qayğı göstərilir, şəhid və qazi övladlarının təhsilinin inkişafı üçün mümkün imkanlar səfərbər edilir. Keçirilən düşərgənin məqsədi də şəhid və qazi övladlarının asudə vaxtlarının səmərəli təşkili, özünə inam, həmrəylik və optimizm hisslərinin gücləndirilməsinə çalışılması, həmin gənclər arasında dostluq əlaqələrinin qurulmasının təmin edilməsi, müxtəlif təlim və görüşlər vasitəsilə şəxsi inkişaflarına dəstək olmaqdır.

Düşərgə müddətində gənclərin Vətən müharibəsi iştirakçıları, rəsmi şəxslər və məşhur simalarla görüşləri, şəxsi və komanda inkişafı yönümlü təlimlər, gənclərin müxtəlif ideyalarının və layihə təkliflərinin müzakirəsi, intellektual, şəbəkələşmə və komanda inkişafı oyunları, Qarabağ bölgəsinə aid mədəniyyət axşamları və asudə vaxt üçün müxtəlif əyləncəli fəaliyyətlər nəzərdə tutulub.

Tədbirdə Qarabağ Zəfərindən bəhs edən videoçarx nümayiş etdirilib. Sonda tanınmış incəsənət ustalarının iştirakı ilə rəngarəng proqramla konsert verilib.

Azərbaycan Gənclər Fondunun və Şamaxı rayonunda yerləşən Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin birgə dəstəyi ilə keçirilən, şəhid və qazilərin 60 övladının iştirak etdiyi düşərgə 5 gün davam edəcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İlham Əliyevin Kəlbəcərə və Laçına səfəri

## Ermənistanın son təxribatlarına ən tutarlı cavabdır

"Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir", - deyən dövlət başçısı səfər zamanı vacib bəyanatlar verdi




Əvvəli 1-ci səh.

Bütün sərhədlərimiz boyu məğlub və məhv edilən erməni ordusu təxribatlar törədir, qatil və cani Sarkisyan Rusiya sülhməramlılarının nəzarəti altındakı Azərbaycan ərazilərində peyda olaraq sərsəm bəyanatlar səsləndirir.

Azərbaycan Prezidentinin Kəlbəcər və Laçına səfəri isə bütün bunlara ən tutarlı cavabdır. O cavab ki, onlar bunun təsirini az sonra görəcəklər, həm də təkcə görməyəcəklər, yaşayacaqlar, əgər ona yaşamaq demək olacaqsa.

Bəs belə olan halda döyüş ritorikası ilə ağzı köpüklənən məğlub Ermənistanın məqsədi nədir? Erməniləri bəşəriyyətə ən qədim, ağıllı və müdrik xalq kimi sırıyan ideologiyanın bünövrəsində hansı məqsədlər gizlədilib. Onların bu ifrat düşmənçilikdə qazancları varmı? Bu sualların tək cavabı var: intihar!

Azərbaycan Prezidentinin səfərini işıqlandıran videogörüntülərdə iki xalqın eyni torpağa necə fərqli münasibətinin bir daha şahidi olduq. Biz azərbaycanlılar tarixboyu qurub-yaratmağa, ermənilər isə dağıtmağa, məhv etməyə can atıblar. Prezident yol boyu görünənləri şərh edir və danışır: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Bəli, qayıtmışıq və qayıdışımızla yenidən tikib-qurmağa başlamışıq. Müharibədən bir neçə ay sonra "Kəlbəcər" yarımstansiyasının tikintisinə başlanmış və 6 ay ərzində işlər sona çatmışdır. İndi də bu ərazilərdə tunel, hava limanı inşa olunur. Erməni işğalçılarının tör-töküntüləri isə Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərimizdə postlar qurur, təxribatlar törətməyə cəhdlər edirlər. Əlavə şərhə ehtiyacı olmayan fərqi görürsünüzmü?

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Taxıl sahələrinin 97,7 faizi biçilib

### 3 milyon tondan çox məhsul istehsal olunub

Dövlət Statistika Komitəsinin məlumatına görə, dənli və dənli paxlalı bitkilərin kütləvi biçini başa çatmaq üzrədir.

Avqust ayının 17-nə olan operativ məlumata əsasən, payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 982,6 min hektar sahənin 960,4 min hektarı və yaxud 97,7 faizi biçilərək məhsulu yığılmışdır. Sahələrdən 3057,1 min ton məhsul toplanmış, məhsuldarlıq 31,8 sentnerə bərabər olmuşdur. Məhsulun 1885,4 min tonunu və yaxud 61,7 faizini buğda, 1146,6 min tonunu (37,5 faizini) arpa, 25,1 min tonunu (0,8 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdir.

Respublikanın 28 rayonunda və Naxçıvan Muxtar Respublikasında dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin biçini tam başa çatmışdır. 27 rayonda biçilməsi nəzərdə tutulan sahənin 90,0 faizindən çoxu biçilmiş, digərlərində isə biçinin aparılma səviyyəsi 90,0 faizdən aşağı olmuşdur. Ən



yüksək məhsuldarlıq Bərdə (1 hektardan 44,0 sentner), Sabirabad (müvafiq olaraq 41,9), Tərtər (40,9), Saatlı (40,8), Ağdam (40,2), Salyan (39,9), İmişli (39,3), Ağcabədi (39,3), Samux (37,4) və Tovuz (37,2) rayonlarında olmuşdur.

Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı Şəki (194,8 min ton), Cəlilabad (184,6 min ton), Kürdəmir (136,3 min ton), Neftçala (124,5 min ton), Füzuli (118,6 min ton), Ağsu (115,9 min ton), İsmayıllı (107,5 min ton) və Sabirabad (106,1 min ton) rayonlarında müşahidə olunmuşdur.

## 7 ayda 2,5 milyard manatdan çox xarici kapital

Cari ilin yeddi ayında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 2 milyard 595,6 milyon manat vəsait yönəldilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 2 milyard 422,6 milyon manatı (93,3 faizi) Birləşmiş Krallıq, İsveçrə, ABŞ, Türkiyə, Yaponiya, Norveç, Vircin adaları, Malayziya, Fransa, Rusiya və İran sərmayədarlarına məxsus olub.

### Vəsaitin çoxu sənaye və tikinti sahələrinə yönəldilib

Bu ilin 7 ayı ərzində əsas kapitala yönəldilmiş ümumi vəsaitin 54,4 faizi sənaye, 19,4 faizi tikinti sahələrinə sərf edilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, sözügedən vəsaitin 13,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi peşə, elmi və texniki fəaliyyət, 1,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, hər birində 1,2 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, təhsil, 0,8 faizi informasiya və rabitə, hər birində 0,4 faiz olmaqla əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi və digər sahələrə sərf olunub.

## Payız yaxınlaşdıqca bağbanların işi artır

Qubanın alma və armud bağlarında kütləvi məhsul yığımına çox az vaxt qalır. Bağbanlar vegetasiya dövrü ərzində bağlarda son becərmə işlərini (suvarma, yaşıl budama, cərgə aralarının frezlənməsi) yerinə yetirməklə yanaşı, zərərverici və xəstəliklərə qarşı kimyəvi mübarizə tədbirlərinin vaxtında yerinə yetirilməsinə də ciddi fikir verirlər.

Əks halda, adətən bu aylar müşahidə edilən alma meyvəyeyəni, Kaliforniya çanaqlı yastıcası, Şərq meyvəyeyəni, yarpaqbükənlər, minalayıcı güvələr, meyvə gənələri, qabıqyeyənlər, mənənələr və digər zərərvericilər yetişməkdə olan meyvələrə çox ziyan vura bilər. Biologiya elmləri üzrə fəlsəfə doktoru, Quba Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin direktor müavini Mədət Qurbanov deyir ki, unlu şeh, dəmgil, meyvə çürüməsi, müxtəlif yarpaq ləkəlilikləri və s. qorxulu xəstəliklərə qarşı kompleks mübarizə tədbirləri görülməsə, bağbanların aylarla çəkdikləri zəhmət heç ola bilər. M.Qurbanov onu da əlavə etdi ki, avqust ayı almanın becərilməsinin sonları olduğu üçün bu ay daha diqqətli olmaq vacibdir.

Payız həm də yığım fəslidir. Məhz payızda əziyyətlə ərsəyə gələn bağlardan bol nemət götürən bağbanlar güzəranlarını, büdcələrini yaxşılaşdırırlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Ölkə üzrə sosial təminat haqqında məlumatlar açıqlanıb

**2021-ci il iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1214,1 min (ötən ilin iyulun 1-i vəziyyətinə 1257,4 min) pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 12,1 faizini təşkil edir.**

Onların 58,8 faizi yaşa, 29,5 faizi əlilliyə, 11,7 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 8,8 faiz artaraq 328,8 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 45,4 faizinə bərabər olmuşdur.

Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 fevral tarixli sərəncamı ilə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2021-ci ilin 1 yanvar tarixindən bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmışdır.

Bununla yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə müxtəlif növ aylıq sosial müavinətlər təyin edilir. Belə ki, 2021-ci ilin iyulun 1-i vəziyyətinə yaşa görə müavinət alanların sayı 109,2 min (ötən ilin iyulun 1-i vəziyyətinə 98,7 min) nəfər, əlilliyə görə - 158,5 min (müvafiq olaraq 183,2 min) nəfər, ailə başçısını itirməyə görə - 48,8 min (48,3 min) nəfər, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşınadək uşaqların sayı 54,4 min (63,7 min) nəfər, digər müavinət növlərini alanların sayı isə 23,7 min (29,1 min) nəfər olmuşdur.

Eyni zamanda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 232 nəfər qəyyumuna aylıq müavinət verilmişdir. Bundan əlavə, müxtəlif kateqoriyalı şəxslərin 8,7 min ailəsinə 13,3 min, beşdən çox uşağı olan 2,4 min qadına 9,2 min uşaq üçün aylıq müavinət, əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkən 341 şəxsə isə kompensasiya verilmişdir.

Cari ilin ilk altı ayı ərzində məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla, 32,9 min ailəyə 33,6 min uşağın anadan olmasına görə, radiasiya qəzası nəticəsində zərər çəkmiş 3,9 min şəxsə müalicə üçün və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 3,2 min nəfərə birdəfəlik müavinətlər verilmişdir.

2021-ci il iyulun 1-i vəziyyətinə 62,0 min aztəminatlı ailənin 264,1 min üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği 60,06 manat təşkil etmişdir.

Bunlarla yanaşı, cari ilin iyulun 1-i vəziyyətinə müxtəlif kateqoriyadan olan 296,8 min şəxsə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunmuşdur.

## Pambıq yığımı ərəfəsində pambıqçıya şad xəbər

### Satınalma qiymətinin növbəti dəfə artırılması pambığı yenidən "ağ qızıl" edir



**Son illər pambıqçılıq sahəsində uğurlu nəticələr əldə olunur. Təkcə keçən il ölkə üzrə 336 min ton pambıq istehsal edilmiş, hər hektarın məhsuldarlığı 33,6 sentner olmuşdur. Bunun əsas səbəbi dövlətin pambıq kimi strateji bir məhsulun istehsalının artırılmasına verdiyi hərtərəfli dəstəkdir.**

İlk növbədə, pambıq əkib-becərən fermerlərə verilən subsidiyalar və edilən güzəştlər bu sahəyə marağı xeyli artırmışdır. Digər tərəfdən, bir sıra kənd təsərrüfatı məhsulları istehsalçılarından fərqli olaraq pambıqçılar yetişdirdikləri məhsulu satmaqda heç bir çətinliklə qarşılaşmır, onu müqavilə bağladıqları təşkilatlara təhvil verirlər. Satdıqları pambığın pulu isə bir neçə saat ərzində fermerlərin kartlarına köçürülür. İşin bir müsbət cəhəti də ondan ibarətdir ki, torpaq mülkiyyətçiləri müqavilə bağladığı şirkətin yaxından köməyi ilə şumdan tutmuş yığımadək hər cür yardım və mütəxəssis məsləhəti ilə əhatə olunurlar. Verilən avanslar, görülən işlərin xərcləri yalnız sonda məhsulun gəlirindən tutulur.

İndi pambıqçılıqda yığım ərəfəsidir. Hər bir fermer istəyir ki, məhsulu qısa vaxtda və itkisiz yığıb təhvil versin. Elə bu ərəfədə istehsalçılar xoş xəbər aldılar - bütün növ pambığın bir tonunun satınalma qiyməti 50 manat qaldırıldı. Sözsüz ki, dövlət tərəfindən verilən bu stimullaşdırıcı qərar istehsalçıları sevindirməyə bilməzdi.

Yaxşısı budur, onların özlərinə söz verək.

*Alim Eyvazov, Salyan rayonunun Şorsulu kəndi:*

- Pambıq qiymətli bitkidir. Amma onu əkib-becərmək heç də asan iş deyil. Hər gün gərək yanında olasan, körpə kimi nazını çəkəsən. Özü də al-günün altında. Nəzərdə tutulan aqrotexniki tədbirləri vaxtında həyata keçirməsən, yüksək məhsul gözləmək əbəsdir. Ona görə çalışırıq ki, çəkdiyimiz zəhmət daha yaxşı nəticə versin, qazancımız çox olsun. Pambığın satınalma qiymətinin artırılması hamı kimi bizi də çox sevindirdi. Çox sağ olsunlar, pambıqçı əməyini növbəti dəfə qiymətləndirdilər. Bir məsələni də qeyd etmək istəyirəm. Pambıq eyni zamanda digər bitkilər üçün yaxşı sələfdir. Növbəli əkin sistemi tətbiq etməklə, pambıqdan sonra əkilən bitkilərdən də yüksək məhsul götürmək mümkündür.

*İmadəddin Dadaşov, Neftçala rayonu, Aşağı Qaramanlı kəndi:*

- Desəm ki, ömrümü-günümü pambıqçılığa həsr etmişəm, inanın. Hələ uşaqkən bizim kolxozun sədri, Sosialist Əməyi Qəhrəmanı Nuruş Əliyevin şan-şöhrət qazanmasına yaxşı mənada həsəd edirdim. O, öz halal zəhməti ilə həmin mərtəbəyə yüksəlmişdi. Mən də özüm üçün onun keçdiyi həyat yolunu seçdim. Neçə illərdir pambıq əkib-becərirəm. "MKT-İK" Neftçala filialı bu işdə başqaları kimi mənə də dəstək olur. Ona görə də heç bir çətinliyimiz yoxdur. Sahələri nümunəvi qaydada becərməyə çalışırıq. Düzdür, ara-sıra su sarıdan müəyyən çətinliklə qarşılaşırıq. Amma onun yerini yaxşı becərmə, xüsusən kultivatoru artıq çəkməklə doldururuq. Sovka da bir neçə dəfə bizi qorxutdu. Lakin dərmanlama ilə ziyanvericinin kökünü kəsdik. İndi sahələr bol məhsuldan xəbər verir. Avqust ayının 25-dən sonra seçmə yolla yığıma başlayacağıq. Pambığın qiymətinin hər ton üçün 50 manat artırılması bizim də ürəyimizdən xəbər verdi. Çalışacağıq ki, buna öz əməyimizlə cavab verək, yetişdirilən məhsulu vaxtında və itkisiz toplayaq, şirkətlə bağladığımız müqaviləyə əməl edək.

*Lətif Cəfərov, Biləsuvar rayonu, Təzəkənd kənd sakini:*

- Yaşımın ahıl çağında da pambıq əkib-becərirəm. Keçən il 34 hektar sahədən 150 ton məhsul götürdüm. Bu il isə 30 hektarda pambıq əkmişəm. Demək olar ki, becərmə işlərini başa çatdırmışıq. Allahın köməyi ilə yaxşı məhsulumuz olacaq. Artıq daban qozaları açılmaq ərəfəsindədir. Bir neçə gündən sonra yığıma başlayacağıq. Hər işin başında maddiyyət durur deyənlər səhv etməyiblər. Məhsul bol olanda gəlir də yaxşı olur. Gəlir çox olanda xeyir-şərini üzüağ yola verirsən, ailən korluq çəkmir. Pambığın satınalma qiymətinin artırılması xəbərini razılıqla qarşıladıq. Bu, bir daha pambıqçı əməyinə verilən qiymətdir. Onu da deyim ki, Prezident pambıqçılığın inkişaf etdirilməsini elə-belə irəli sürməyib. Pambıqçılıq əməktutumlu sahədir, yəni on minlərlə adamın işləməsi, qazanc əldə etməsi deməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Neft qiymətləri bahalaşır

Dünya birjalarında neft qiymətləri bahalaşır.

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,31 dollar artaraq 66,76 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,29 dollar bahalaşaraq 63,98 dollar olub.

## Buğda idxalı azalıb

2021-ci ilin yeddi ayında ölkəyə 408,8 min ton buğda idxal olunub.



AZƏRTAC Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verir ki, hesabat dövründə idxal edilən buğdanın dəyəri 103,7 milyon ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə ölkəyə 94 milyon dollarlıq 434,5 min ton buğda idxal edilib.

## Xəzərdə yeni rəqəmsal texnologiyanın tətbiqinə başlanılıb



bp "Şərqi Azəri" və "Qərbi Çıraq" platformalarında üçölçülü (3D) vizuallaşdırma texnologiyasının tətbiqinə başlayıb. Bununla şirkət regionda əməliyyatçısı olduğu bütün obyektlərin rəqəmsal modelləşdirilməsinin birinci mərhələsinə start verib.

Bu yeni texnologiya ilə ölçmə qabiliyyətinə malik yüksək dəqiqlikli təsvirlərdən uzaq məsafədən istifadə etməklə təftiş, planlaşdırma və yoxlama kimi bir sıra mühüm fəaliyyətləri yerinə yetirmək mümkündür. O, həmçinin virtual rejimdə baxış imkanına malikdir və işçilərin uzaq məsafədən obyektlərə baxış keçirməsinə şərait yaradır. Bu da öz növbəsində bir sıra iş proseslərinin sadələşdirilməsinə, vaxt və xərclərin optimallaşdırılmasına, texniki təhlükəsizliyin təkmilləşdirilməsinə və komandalar arasında daha yaxın əməkdaşlığa imkan verir.

"Şərqi Azəri" platformasının 3D rəqəmsal modeli Xəzərdə bp-nin operatoru olduğu qurğuların bu vaxtadək ilk üçölçülü modelidir. Onun hazırlanması üçün fotoqrammetrik çəkiliş aparılıb, platformanın sferik təsvirlərinin hazırlanması prosesi tamamlanıb və yekun təsvirlər emal edilərək istifadə üçün sistemə yüklənib.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov: "3D vizuallaşdırma vasitəsinin tətbiqi layihə üzərində çalışan heyətin möhtəşəm nailiyyətidir və regiondakı əməliyyatlarımızı texnologiyaların inkişafı və rəqəmsal transformasiya baxımından qabaqcıl mövqeyə çıxarır. Bu vasitənin istifadə imkanları çox genişdir. Hazırda bu texnologiya işlərin planlaşdırılması və icrasında daha səmərəli olmağımıza yardım etməklə yanaşı, əməliyyatlarımızın təhlükəsiz şəkildə davamını təmin edir. Gələcəkdə bu yeni texnologiya sahədəki iş yükünü azaltmaqla əməyin təhlükəsizliyinin gücləndirilməsinə daha geniş imkanlar yaradacaq".

bp 2021-ci ilin sonunadək AÇG ("Azəri-Çıraq-Günəşli") yataqlarındakı bütün dəniz qurğularının 3D vizuallaşdırmasını həyata keçirməyi planlaşdırır. Növbəti bir neçə ildə isə özünün regionda əməliyyatçısı olduğu digər dəniz qurğularında və Səngəçal terminalında da bu rəqəmsal texnologiyanı tətbiq etməyi nəzərdə tutur.

Qeyd edək ki, 3D vizuallaşdırma texnologiyasının tətbiqi çoxmərhələli "Rəqəmsal əkiz" layihəsinin icrasında atılan ilk addımdır. "Rəqəmsal əkiz" obyektin və ya sistemin virtual modelidir, onun bütün istismar müddətini əhatə etməklə və simulyasiya, maşın öyrənməsi və əsaslandırma vasitələrindən istifadə etməklə qərarların qəbul olunmasına, həmçinin işin məsafədən hazırlanması və icrasına yardım göstərir.

# Naxçıvanda Aşura günündə keçirilən qanvermə aksiyalarında 504 donordan qan götürülüb





Muxtar respublikada Aşura günü qanvermə aksiyaları keçirilib.

AZƏRTAC xəbər verir ki, Aşura günündə ənənəvi keçirilən qanvermə aksiyaları ötən il olduğu kimi, bu il də pandemiya səbəbindən məscidlərdə deyil, səhiyyə müəssisələrində - Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Diaqnostika-Müalicə Mərkəzində, rayon mərkəzi xəstəxanalarında, eləcə də Kəngərli rayonunun Xok, Qarabağlar kənd həkim ambulatoriyalarında, Culfa rayonundakı Bənəniyar, Babək rayonundakı Qahab, Zeynəddin kənd həkim ambulatoriyalarında, Cəhri, Nehrəm qəsəbə sahə xəstəxanalarında təşkil olunub.

Sosial məsafə gözlənilməklə sanitar-gigiyena qaydalarına ciddi əməl edilib, donorların və tibb işçiləri üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim briqadaları əvvəlcə donorlar üzərində koronavirus, arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün müayinələr aparıb, sonra müvafiq qan qruplarına uyğun qan götürülüb. Sakinlər könüllü olaraq qanvermə aksiyasında iştirak ediblər.

Günorta saatlarınadək davam edən aksiyada Naxçıvan Muxtar Respublika Xəstəxanasında 77 nəfərdən 38,5, Diaqnostika-Müalicə Mərkəzində 39 nəfərdən 19,5, Ordubad rayonunda 27 nəfərdən 13,5, Şərur rayonunda 54 nəfərdən 27, Sədərək rayonunda 30 nəfərdən 15, Şahbuz rayonunda 50 nəfərdən 25, Kəngərli rayonunda 70 nəfərdən 35, Babək rayonunda 93 nəfərdən 49,6, Culfa rayonunda 64 nəfərdən 32 litr qan götürülüb.

Ümumilikdə 504 nəfərdən götürülən 255,1 litr qan qrupları müəyyənləşdirilərək Qan Bankına təhvil verilib.

# Naftalanlı şəhid və qazi övladları Bakıya səfər ediblər







Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə şəhid və qazi övladları Bakı şəhərinə səfər ediblər.

Səfər zamanı ziyarətçilər Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən foto, video materiallarla və digər eksponatlarla tanış olublar. Şəhidlər xiyabanında ölkəmizin ərazi bütövlüyü uğrunda qurban getmiş qəhrəmanlarımızın məzarlarını ziyarət edən uşaqlar sonra Hərbi Qənimətlər Parkında 44 günlük Vətən müharibəsi zamanı düşməndən götürülən hərbi qənimətlərə baxıblar. Səfər zamanı uşaqların əyləncəsini təmin etmək üçün müxtəlif proqramlar da təşkil olunub. "McDonald's"dakı nahardan sonra restoran tərəfindən uşaqlara hədiyyələr təqdim edilib.

Şəhid və qazi övladlarını səfərdə valideynləri müşayiət etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

*Təkrar*

## Göygöl Rayon İcra Hakimiyyətinin Göygöl şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2021-ci il üçün *açıq tender elan edir*

Göygöl MKTİB-nin balansında olan kommunal yaşayış evlərində əsaslı təmir işləri (23 yaşayış evinin təmiri).

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqavilənin vaxtında yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar Tender komissiyasına müraciət edə bilərlər.

Ünvan: Göygöl şəhəri, S.Hacıyev küçəsi, 42
Telefon: 022-205-23-69; (050) 681-61-50
Əlaqələndirici şəxs: Allahverdiyeva Fəridə Mayıl qızı.

Maraqlananlar aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra Əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı - 400 manat. İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

Təşkilat: Göygöl RİHB-nin Göygöl şəhər İƏD-si üzrə nümayəndəliyi

**HESAB: AZ93CTRE00000000000002511232**
**VÖEN: 7600050571**

**BANK: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**Kod: 210005**
**VÖEN BANK: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında məlumat;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması barədə arayış;*
- *tender təkliflərinin təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri **03.09.2021-ci il saat 12:00-dək,** tender təklifi və bank zəmanətini isə **13.09.2021-ci il saat 12:00-dək** təqdim etməlidirlər.

Tender zərfləri **14.09.2021-ci il saat 12:00-da** açılacaqdır.

***Tender komissiyası***

# Baş Prokurorluq daha bir həssas məsələ ilə bağlı videomüraciət yayımlayıb










Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti daha bir həssas məsələ - intihar halları ilə bağlı videomüraciət təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videomüraciətdə müasir dövrdə cəmiyyətin sağlam gələcəyini təhdid edən sosial problemlərdən birinin də intihar olduğu vurğulanıb. Qeyd edilib ki, müxtəlif psixoloji (və ya sosial) problemlərin nəticəsi olaraq hər il dünyada bir milyona yaxın insan öz istəyi ilə həyatına son qoyur.

"Təəssüflər olsun ki, təkcə 2021-ci ilin birinci yarımili ərzində ölkə ərazisində baş vermiş intihar hadisələri nəticəsində 322 nəfər şəxs həyatını itirib.

Bu faciəvi sonluqdan qaçmaq üçün psixoloji dəstəyə ehtiyacı olan insanları görməməzliyə vurmamalı, onlara laqeyd yanaşmamalıyıq.

Həyat və insanlar sandığın qədər əzabverici deyil, dəyişməli olan baxış bucağındır! Qaranlıqdan sonra günəş mütləq doğacaq, həyatın kontrolunu ələ al!", - deyə videomüraciətdə bildirilib.

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən təmizlik işlərinin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibi "Parlaq Məkan" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Parlaq Məkan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 05.08.2021-ci il tarixdə ƏDV daxil olmaqla ümumilikdə 47,208.00 (qırx yeddi min iki yüz səkkiz manat 00 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin aparılması məqsədilə lazım olan mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**LOT- 1.** Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin aparılması məqsədilə lazım olan mal, iş və xidmətlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 012 496-52-05.

**İştirak haqqı 300 (üç yüz) manatdır.**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Təşkilat: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/H: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır və ödənişlər ancaq "ASAN ödəniş" vasitəsilə həyata keçirilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının müvafiq sahədə fəaliyyət göstərməsinə icazə verən lisenziya.*

İddiaçının bu sahədə peşəkarlığını əks etdirən məlumatlar:

- *əsas işçi heyəti və idarəetmə aparatında çalışanların ixtisasları və iş təcrübələri barədə məlumat;*
- *iddiaçının texniki imkanları (inzibati və istehsalat sahələri, nəqliyyat vasitələri və digər avadanlıqları) barədə məlumat;*
- *son 3 ildə iddiaçı tərəfindən icra edilmiş oxşar layihələr barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **09.09.2021-ci il saat 11:00-dək,** tender təklifi ilə bank zəmanəti sənədlərini isə **17.09.2021-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.09.2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. Tenderdə yalnız "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 50-1.1-ci maddəsində göstərilən meyarlara uyğun gələn iddiaçılar iştirak edə bilərlər.*

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4916
Sifariş 1510
Qiyməti 40 qəpik